


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 123 (24.010)

*2 iyul 2022-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 1 iyul tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsi, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır:

**Qasımov Ceyhun Həsən oğlu – polis polkovnik-leytenantı**
**Cəfərov Məhiyəddin Bulud oğlu – polis mayoru**

"Vətən uğrunda" medalı,

**Nağıyev Kənan İlyas oğlu – polis mayoru**

"İgidliyə görə" medalı ilə təltif edilmişlər.

## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" qızıl nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ordu quruculuğu sahəsində xüsusi xidmətlərinə görə Kərəm Nəriman oğlu Mustafayev **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** qızıl nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 iyul 2022-ci il*

## Yaşayış məntəqələrində infrastruktur yenilənir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası qədim diyarın iri yaşayış məntəqələrindən olan Babək rayonunun da davamlı inkişafını təmin edib.*





Artan əhali sayı və sosial-iqtisadi inkişaf göstəriciləri, məskunlaşma, yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin olunması, təsərrüfatların genişləndirilməsi ilə paralel olaraq yaşayış məntəqələrinin siması da tamamilə dəyişib.

Cari ildə muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Babək rayonunda da abadlıq-quruculuq işlərinə başlanılıb. Hazırda Babək şəhərinin Hüseyn Cavid və Məmməd Səid Ordubadi küçələrində hörgü və suvaq işləri aparılır, uçuq həyət divarları hörülərək bərpa edilir, yeni küçə qapıları salınır. Artıq 10-a yaxın həyətin küçə qapısı yenisi ilə əvəz olunub. Şəhərdə yeraltı elektrik və rabitə xətlərinin çəkilməsi işlərinə də başlanılıb. Qeyd edək ki, məhəllədaxili yollara asfalt örtük də veriləcək.

Bu ilin mart ayından etibarən Babək şəhərinin Heydər Əliyev prospektində rayonun məktəbdənkənar müəssisələri üçün binanın tikintisinə başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Babək Rayon İdarəsinin inşaatçıları tərəfindən müasir layihə əsasında tikilən bina üç mərtəbədən ibarət olacaq. Binanın birinci mərtəbəsində Texniki Yaradıcılıq Mərkəzi, sərgi salonu, STEAM otağı, ikinci mərtəbədə Uşaq-gənclər yaradıcılıq mərkəzi, müəllimlər otağı, xalçaçılıq, toxuculuq və bədii tikmə, rəsm-vitraj sinifləri, qum sənəti otağı, arxiv, üçüncü mərtəbədə isə rəqs və gimnastika zalı, cihazların saxlanılması otağı, eləcə də digər siniflər fəaliyyət göstərəcək.

Müasir təhsil infrastrukturunun yaradılması qarşıda duran əsas vəzifələrdən biridir. Bunun nəticəsidir ki, Sirab və Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəblərdə yenidənqurma və tikinti işləri davam etdirilir. Yeni layihə əsasında qurulan Sirab məktəbində işlərin böyük bir hissəsi yekunlaşıb. Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbdə isə tikinti işləri bu ilin mart ayından başlayıb. Üç mərtəbədən ibarət təhsil ocağı 954 şagird yerlik olacaq.

Abadlıq-quruculuq işləri çərçivəsində Babək rayonunun Vayxır kəndində də kompleks quruculuq işlərinə başlanılıb. Hazırda kənddəki tam orta məktəb binası əsaslı yenidən qurulur, kənd və xidmət mərkəzləri inşa olunur. Müasir layihə əsasında qurulan məktəbdə tədris infrastrukturu yenilənəcək, elektron lövhəli siniflər, laboratoriyalar, fənn kabinələri yaradılacaq.

**Lalə ALLAHVERDİYEVA**

***AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə iclas iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.***

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası keçirilib



Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov iclasda "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda elmi məruzə edib. Məruzədə hərb tarixinə nəzər salınıb, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu sahəsində görülən işlərdən bəhs olunub. Qeyd edilib ki, dahi rəhbər Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1971-ci ildə general Cəmşid Naxçıvanskinin adını daşıyan ixtisaslaşdırılmış internat məktəbinin yaradılması Azərbaycanda ixtisaslı kadrların formalaşdırılmasına mühüm töhfə olub. Bildirilib ki, ulu öndər ölkəyə rəhbərliyinin ikinci dövründə də ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Ordu quruculuğuna peşəkar yanaşma sayəsində ardıcıl surətdə Azərbaycan Ali Hərbi Məktəbi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı, Hərbi Akademiya yaradılıb, Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edilib. 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulub.

Milli ordu quruculuğuna ötən əsrin 90-cı illərində Naxçıvandan başlanıldığını qeyd edən Asəf Orucov muxtar respublikada hərb işinin təkmilləşdirilməsi və ordu quruculuğu sahəsində görülən işlərdən söz açıb. Qeyd olunub ki, Azərbaycanda ordu quruculuğunun yüksələn xətlə davamı Aprel döyüşləri, Günnüt zəfəri, 44 günlük Vətən müharibəsi zamanı qazandığımız parlaq qələbələrdə əksini tapıb.

Daha sonra elmi-təşkilati məsələlərlə bağlı müzakirələr aparılıb, müvafiq qərarlar qəbul olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## İqtisadiyyatın əhəmiyyətli sahəsinin inkişafı diqqətdə saxlanılır

***2022-ci ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının göstəricilərinə baxdıqda aydın olur ki, muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə ardıcıl tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılmasında mühüm rol oynayıb.***





Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatının davamlı olaraq yaxşılaşdırılması aqrar sahədə görüləcək işlərin daha operativ və keyfiyyətlə yerinə yetirilməsinə yardımçı olur. Məlumat üçün qeyd edək ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2022-ci ilin yanvar-mart aylarında 69 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. 2022-ci ilin ilk rübündə 31 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilib, 3 ədədi nağd yolla satılıb. Bu dövrdə məhsul istehsalçıları 7836,3 ton mineral gübrə ilə təmin olunub.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı əhalinin ağartı məhsullarına olan tələbatını ödəyir. 2022-ci ilin ilk rübündə 24 heyvandarlıq təsərrüfatı yaradılıb, 4 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatıb. Ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 2022-ci ilin yanvar-mart aylarında 3 milyon 726 min 100 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 8,4 faiz çoxdur. 2022-ci ilin yanvar-mart aylarında heyvandarlıq təsərrüfatlarında 2304 baş inək, düyə və camış süni yolla mayalandırılıb, bu dövrdə 2987 baş sağlam bala alınıb. Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli Fərmanının icrası bu sahənin inkişafına yeni imkanlar yaradır. 2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6926 ton ət, 13443,7 ton süd istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,2 və 1,3 faiz çoxdur. Muxtar respublikamızda arıçılıq inkişaf etdirilir, bu sahə ilə məşğul olan hüquqi və fiziki şəxslərə subsidiyaların verilməsi arıçılığa marağı daha da artırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə qəbul edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması, istehsal edilən məhsulların ixrac potensialının artırılması və kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulmasında əhəmiyyətli rol oynayıb.

2022-ci ilin ilk rübündə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 4 milyon 487 min 500 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 8 faiz çoxdur. Muxtar respublikada aqrar sahədə elektron xidmətlərin tətbiqi və elektron informasiya sisteminin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci il 27 yanvar tarixdə "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi" haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman, muxtar respublikada dövlət və səfərbərlik ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləmə və nəzarəti məsələlərini icra edən, habelə strateji əhəmiyyətli mallarla təchizatı təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədilə 2022-ci il 16 fevral tarixdə Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalanıb.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq istehsal olunan kənd təsərrüfatı məhsulları daxili bazarı təmin etməklə bərabər, ixrac üçün də mühüm potensial yaradır.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan bu gün ən qədim Şərq, ən müasir Avropa şəhəridir

## Prezidentin fərdi təqaüdçüsü, Əməkdar jurnalist Flora Xəlilzadə: "Nəqşicahanda olanda özümü bəxtəvər və xoşbəxt hiss edirəm"

***İlk qəzetçilik fəaliyyətinə başladığım illərdən Azərbaycan mətbuatında hər zaman bir imza məni özünə cəlb edib. Zamanla o imzanın pərəstişkarına çevrilmişəm. 2006-cı ildə bu imzanın sahibi ilə daha yaxından, şəxsən tanış oldum. Həmkar kimi doğmalaşdıq. Ara-sıra, imkan düşdükcə görüşməyə başladıq. Ondan öyrəndiklərim, əxz elədiklərim çox oldu. Öyrəndim ki, söz dərgahının hüzurunda həmişə başıuca dayanmaq üçün ürəyin diktəsindən uzağa getməməlisən. Əgər qəzet adamısansa, bu sahənin fədaisi olmağı özünə yol seçmisənsə, söz sənin üçün var-dövlətdən yuxarıda dayanmalıdır. Və ondan öyrəndim ki, söz sənin üçün xilqət və müqəddəs varlıq olmalıdır. Bu xilqəti, bu varlığı oxucuya, tamaşaçıya, dinləyiciyə olduğu kimi çatdırmalı, ürəyi ələ almağı bacarmalısan. Bəli, müəllimim dediyim o imzanın sahibi ilə birgəyəm. Yorulmadan, usanmadan Naxçıvanın hər qarışını gəzdik. Bu qədim yurd yerinin müasir inkişafını gördükcə kövrəldi, ürəyi dağa döndü. Azərbaycan televiziyasının Ədəbi dram və folklor verilişləri baş redaksiyasının baş redaktoru, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar jurnalist Flora Xəlilzadə ilə söhbətləşirik. İstərdim ki, bu söhbəti doğma qəzetimiz – "Şərq qapısı"nın oxucuları ilə də bölüşüm:***

*– Flora xanım, sizi Naxçıvanda xoş gördük... Bilirəm ki, bu torpaq sizin uşaqlığınızın, analı günlərinizin ünvanıdır. Səyahətimiz boyu kövrək anlar yaşadınız. İsdərdim ki, keçirdiyiniz hissləri sizin dilinizdən eşidək.*

– Mən Naxçıvanda doğulmamışam, Naxçıvana bitişik bir yerdə – Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndində dünyaya göz açmışam. Amma bütün əcdadlarımın, bütün can-ciyərlərimin əksəriyyətinin cismi burada uyuyur, bizim ruhumuz buradadır. Ona görə Naxçıvan mənim üçün doğma ana Vətəndir. Mən harada anadan olmağıma, harada yaşamağıma baxmayaraq, həmişə özümü naxçıvanlı kimi hiss edirəm. Bundan da qürur duyuram. Naxçıvanda həmişə özümü bəxtəvər, xoşbəxt hiss edirəm. Naxçıvana ayağım dəyən kimi elə bil udduğum hava mənə bir enerji verir, həyat verir. Təyyarədən enən kimi tələsirəm ki, dərhal örtülü məkandan tez çıxım, o havanı udum. Bir neçə ildir ki, Naxçıvana gələ bilmirdim. Gəldim və budəfəki gəlişimdə yeniliklərin, gözəlliklərin o qədər artdığını gördüm ki, ürəyim dağa döndü. Ziyarətimə Heydər Əliyev Muzeyinə getməklə başladım. O dahi şəxsiyyət Heydər Əliyevlə səfərdə olduğum müqəddəs, unudulmaz günləri xatırladım, o gülüş qulağımda səsləndi. O muzeyi gəzəndə elə bil dünyanı mənə verdilər. Dedim, İlahi, sən, doğrudan da, Azərbaycan xalqını sevib, ona elə bir lütf göstərmisən ki, belə bir Xilaskar dünyaya gəlib və Azərbaycanı bəlalardan azad edib. Bu dahi şəxsiyyətin ana yurdunda olmaq mənim üçün böyük şərəfdir. Naxçıvan düşmən əhatəsində yaşamasına baxmayaraq, bu Vətən torpağı, bu cənnətməkan öz qürurunu, məğrurluğunu çox gözəl qoruyub saxlaya bilib. Ən əsası isə muxtar respublikada Heydər Əliyev siyasəti uğurla davam etdirilir, yəni Naxçıvana rəhbərlik edən şəxsiyyət də Heydər Əliyev siyasi irsinə, Heydər Əliyev yoluna sadiqdir. Bunu Naxçıvanın hər döngəsində, hər küçəsində, hər guşəsində görürsən. Bəli, bu gün Heydər Əliyev ənənəsi, Heydər Əliyev ideyası, Heydər Əliyev arzuları Naxçıvanda yaşayır. Yalnız çiçək açmayıb. Bar verir... Bütün Azərbaycanı yox, bütün Şərqi, Türk dünyasını gəzin, Naxçıvanın bənzəri yoxdur. Naxçıvan bu gün ən qədim, Şərq və ən müasir Avropa şəhəridir. Yəni ənənələrin bu cür davam etməsi bütün gözəlliklərin o torpaq üzərində cücərməsidir. Yəni şitil deyil, müasirlik klassikaya, mənəvi dəyərlərə söykənib. Təsadüfi deyil ki, çoxu bu gün Naxçıvanın milli dəyərlərin beşiyi, milli mədəniyyətin beşiyi olduğunu etiraf edir.

*– Naxçıvanda sözü təkcə dəyişən zaman demir, həm də çiçəklənən məkanlar deyir... Yenidən qurulan Naxçıvanda diqqətinizi daha çox nələr çəkdi?*

– Bu sualın cavabı çox genişdir. Daha ətraflı yaxın günlərdə qələmə alacağım məqalələmdə sözümü deyəcəyəm. Bu öz yerində. Ancaq bir məsələni indi vurğulamaq istəyirəm ki, binaların yenidən bərpa edilməsi və onun milli üslüba yönəldilməsi çox xoşuma gəldi. Ötən dəfə də demişdim, indi də eyni fikirdəyəm: Naxçıvan qədər təmiz şəhər heç yerdə yoxdur. Diqqətimi məzarlar çəkdi. O qədər qürur duydum ki, əvvəllər məzarlar bir-birindən çox fərqlənirdi, məzarları dəmir məhəccərə alırdılar. Sanki o dünyada da mənimsəməlik var idi ki, bura mənimdir. İndi hamı eynidir. Bir dənə olsun belə məhəccər görmədim.Torpağı qamarlamaq yoxdur. Bütün bunlar insana qəlb rahatlığı gətirir. Bu, adi məsələ deyil. Bu, Naxçıvan nizamıdır, intizamıdır, mədəniyyətidir. Buradakı taksi sırası, sürücülərin səliqə-sahmanı diqqətimi çəkdi. Avtodayanacaqların bəziləri o qədər milli üslubda düzəldilib ki, xoş ovqat bəxş edir. Əslində, milli üsluba bu qədər bağlılıq, həm də müasirliyə aparır. Bilirsən, bu gün mənəm-mənəm deyən dünya ölkələrinin bəzi şəhərləri ilə müqayisə etsək, vallah Naxçıvan



qalib olar.

Naxçıvanda tanımadığın bir qapını döysən, yaşlısı səni balam deyib bağrına basar, balacası da qaçıb qucaqlayar səni. Neçə dəfə yaşamışam bu xoş duyğunu. Bu dəfə də Batabatda bir uşaq qollarını açıb üstümə elə gəldi ki... Deyə bilərlər ki, bu Azərbaycanın hər yerində belədir, qurban olum Azərbaycana. Şəxsən Bakıda mənim qapım döyüləndə gözlükdən baxıram görüm tanımadığım adam olarsa, deyim ki, düz gəlməmisiniz və ya siz kimsiniz? Amma Naxçıvanda bu sualı vermirlər. Naxçıvanda heç qapını bağlayırlar ki? Qaldığım evə baxıram ki, bütün gün qapısı açıqdır. Deyirəm qorxmursunuz? deyirlər nədən? Bilirsən, mənə çox xoş gəldi. Qonağı olduğum ev birinci mərtəbədədir, pəncərəsi səhər-axşam açıqdır. Mən evlərə baxdım, əksəriyyətində belədir. Bu, əmin-amanlıqdır. Bu, sabitlikdir. Təyyarədən düşən kimi adamlar tez mənə yanaşdı, hara aparmaq lazımdır, deyin biz sizi yola salaq, biz sizi aparaq, narahat olmayın ha, birdən elə bilərsiniz pula görə deyirik, siz narahat olmayın. Bilirsən, bu yanaşmanın özü mənəviyyatdır. Mənəvi böyüklükdür. Təyyarəyə qalxıram, əlimdəki çanta əl çantasıdır, kömək təklif edirlər. Orada oturmuşam, deyirlər xanıma çay gətir. Bilirsən, adi görünən bu məqamların daxilində böyük mətləblər var. Bunu bəzən elə bilərlər ki, hə, nə olsun yolyoldaşıyıq, yox dünyanın çox ölkəsində olmuşam. Yolyoldaşlığını görmüşəm, insanlığı görmüşəm nə bilim, yenə deyirəm mən Naxçıvanda olanda özümü xoşbəxt və bəxtəvər hiss edirəm.

*– Hələ gəlməmişdən dediniz ki, bir neçə yerə mütləq getməliyik. Çox maraqlıdır, bu məkanların sizdə yeri nədir?*

– Mən Naxçıvana gələndə 3 məkanı mütləq ziyarət etməliyəm – Əshabi-kəhf, Möminə xatın, bir də son vaxtlar Hüseyn Cavid məqbərəsi. Naxçıvan deyəndə həmişə gözümün qarşısında 2 məbəd canlanır. Onun biri Möminə xatın türbəsi, biri də Əshabi-kəhf ziyarətgahıdır. Yəni həmişə anam Allahı köməyə çağıranda "ya Əshabi-kəhf", – deyərdi. Uşaqlıqdan, gözümü açandan, ağlım kəsəndən anamın bütün inamı, ziyarəti Əshabi-kəhflə bağlı olub. Allaha yalvaranda Əshabi-kəhfi çağırmışıq. Əshabi-kəhf biz naxçıvanlıların, Zəngəzurda yaşayanların Məkkə, Mədinəsi olub. Anam dünyasını dəyişəndə son sözü də belə oldu – yastıq altından pul çıxardıb dedi ki, gedib Əshabi-kəhfə qurban kəsərsən. Yəni Əshabi-kəhfin bizim həyatımızda, taleyimizdə böyük mənəvi təsiri və gücü var. Bir məsələni də deyim ki, Bakının yaxınlığında Beşbarmaq dağı var. Ora ziyarətgahdır, adamlar gedirlər. Ora gedəndə yolun-izin nə gündə olduğunu görəsiniz, hər daşın dalından bir dilənçi boylanır. Amma gəlin Əshabi-kəhfə, görün nə qədər təmizlik var. Bəlkə də, siz uşaq olarsınız, xatırlamazsınız, Əshabi-kəhfdə də o zamanlar natəmizlik baş alıb gedirdi. Bilmirdin, insanlar bura ziyarətə gəlir, yoxsa yeyib-içməyə. İndi bura Azərbaycanın ən gözəl məbədgahına çevrilib. Naxçıvana gəlib ora dəyməsəm, anamın ruhu narahat olar.

İkincisi, Möminə xatın abidəsi mənim üçün bənzərsizdir. Bir dəfə bir beynəlxalq konfransda qadın hüquqlarından danışdılar, guya bizim bölgədə qadın hüququ olmayıb. Yerdən söz aldım, bildirdim ki, Azərbaycan qadını, doğrudan, heç vaxt hüquqsuz olmayıb. Azərbaycan qadını çövkən oynayıb, Azərbaycan qadını at çapıb... Azərbaycan dünyada yeganə yerdir ki, qadın məzarı üstündə məqbərə ucaldılıb. Bu, nə deməkdir? Bu onun hüquqlarından xəbər verir. Və bu abidə Naxçıvandadır. Qadın ucalığı bu məqbərənin timsalında qorunur və yaşadılır. Ümumiyyətlə, Naxçıvan tarixi abidələrlə zəngindir və seçilir. Bəlkə, bir bölgədə bir abidə ola bilər, Naxçıvanın isə özü elə abidədir. Əlincə qalasıdır, Haçadağdır, Darıdağdır. Dünən Ordubaddan qayıdanda yolun sol tərəfində sıralanan tunc rəngli dağlar mənə Misirdəki piramidaları xatırlatdı. Bu dağlara bir az diqqətlə, məhəbbətlə, ürəklə baxanda deyirsən, piramidalar bunun yanında heç nədir. Hərdən də fikirləşirəm ki, İlahi, bunları görəsən Tanrı özü yaradıb, yoxsa insan əli tökub?

Bəli, Naxçıvanda abidələr qorunur. Amma sovet dövründə onun torpağını, daşını daşıyıb hasar hörürdülər. İndi isə heç kəs buna cürət edə bilməz. Artıq Naxçıvanda elə bir ideologiya formalaşıb ki, insanlar yaradılanları qorumağı özlərinin vətəndaşlıq borcuna çeviriblər.

*– Siz Azərbaycan televiziyasının "Mədəniyyət" kanalında oğlunuz, şair-jurnalist Bəhruz Niftəliyevlə birgə "Yadigarlar" verilişini hazırlayırsınız. Verilişlərinizdə Naxçıvanın yazıçılarına da üstünlük verirsiniz. Xüsusilə də böyük şairimiz Məmməd Araza...*

– Mən tanınmış yazıçı və şairlər, rəssamların, elm adamları, dünyasını dəyişmiş görkəmli şəxsiyyətlər haqqında məlumat verməklə insanları maarifləndirmək niyyəti ilə bu verilişi yaratdım. Bəhruz da onları böyük həvəslə araşdırır, barələrində maraqlı və yeni faktlar aşkarlayır, bir sənətşünas kimi təhlil edir. Bir xüsusiyyətim var ki, sevmədiyim adamlar haqqında danışa bilmirəm, yəni o ürəklə yanaşa bilmirəm. Azərbaycanın yazıçıları, şairləri var, çəkməmişəm, yəqin ki, bundan sonra da çəkməyəcəm. Çünki mən insanları bu verilişə gətirəndə təkcə onların yaradıcılıqlarını yox, şəxsiyyətlərin daxili zənginliklərini və mənəvi keyfiyyətlərini də nəzərə alıram. Əgər kimsə Hüseyn Cavidə xalq düşməni deyibsə, onu ömrümdə çəkə bilmərəm. Bəhruz Kəngərlini çox sevmişəm, xüsusən "Qaçqınlar" silsiləsindən olan əsərləri məni həmişə valeh edir, xiffətləndirir və mən, hətta oğlumun adını Bəhruz qoymuşam. Bir dəfə Türkiyədə bir nəfərlə görüşəndə dedi ki, azərbaycanlıyam. Dedim necə? Dedi, mən Kəngərlidənəm, dedim yoxsa Bəhruz Kəngərlinin qohumusan? Dedi, eşitmişəm, o mənim əqrəbamdır. Orta Asiyada da bu kəngərlilər var. Yayılıblar dünyanın hər yerinə. Yəni Bəhruz Kəngərli bizim rəssamlıq sənətimizin korifeyidir. Azömürlü olub, amma əsərləri ilə əbədiyyət qazanıb. Ona görə onun adını çəkməsəm, narahat olardım, yaşaya bilməzdim. Elə insanlar var ki, onların həyatı və yaradıcılığı mənim üçün bir qibləgahdır. Hüseyn Cavidi dəfələrlə çəkmişəm. Turan Cavidlə bizim çox böyük dostluq əlaqəmiz var idi. Qəribədir, bax Naxçıvana gəldim, getdim ziyarət etdim Hüseyn Cavid məqbərəsini, gecə Turan Cavid yuxuma girdi. Bu ruhi bağlılığı mən həmişə qəbul etmişəm.

Məmməd Arazla bağlı sualınıza gəldikdə isə mənim nəslimin, yəni ata nəslimin fəxri olan, millətimin fəxri olan, Naxçıvanımın fəxri olan Məmməd Araz mənim üçün həyat deməkdir. Ata deməkdir, hər şey deməkdir. Ona ölümündən sonra bir poema yazmışam. Orada bir misra var, demək istəyirəm:

*Dərdindən ölənlər ziyarətində,*
*Şöhrətinə uyanlar həndəvərində.*
*Mən dərdindən ölənlərindənəm,*
*Məmməd Araz...*

Məmməd Araz çox böyük bir şair idi, həmişə dediyim bir ifadəni təkrar etmək istəyirəm: Öz həmkarları arasından bir ox kimi sıyrılaraq o elə bir yüksəkliyə çatıb ki, orada təkdir. Onu heç kəslə müqayisə edə bilmərəm. Azərbaycanın böyük şairləri, özünəməxsus yaradıcılıqları ilə seçilən şairləri çoxdur, amma qohum kimi demirəm, vallah, əqrəba kimi demirəm, həqiqət budur: Məmməd Araz yeganədir. Məmməd Arazın anası, mənim unudulmaz Cahan bibim, sinəsi bayatılı, bədahətən şeirlər deyən bir xanım olub. Ötən əsrin əvvəllərində erməni-müsəlman qırğınları zamanı o, həyat yoldaşı ilə Şahbuzun Nursu kəndində məskunlaşmalı olublar, yəni birdə oraya qayıtmayıblar. Orada uşaqları olub, orada yaşayıb, əmim də burada doğulub, burada böyüyüb, Nursu mənim üçün çox müqəddəs yerdir ki, orada mənim əqrəbalarımın, can-ciyərlərimin cismi uyuyur.

*– Batabatda olarkən dağlara baxıb köks ötürdünüz. Bəzən gözlərinizi gözlərimdən qaçırırdınız. Hansı xatirələr canlandı?*

– Bu hissləri buraya gəlməmişdən əvvəl Şuşada yaşadım. Axı bu yerlər məni addım-addım ata-baba yurduma yaxınlaşdırır. Şuşada fərəhlə, qürurla addımladım. O yumruğun – "dəmir yumruğ"un sayəsində bizim igid oğullarımız birləşərək Vətən torpağını azad etdilər. Fəxrlə deyə bilərik ki, həmin o fədakar şəhidlərin də, qazilərin də içərisində Naxçıvan igidləri də var idi və çoxluq təşkil edirdi. Batabat yollarında ona görə kövrəldim ki, Zəngəzur silsiləsinin o tərəfi mənim doğulduğum kənddir. Lap körpə yaşımdan, məktəbə getməmişdən qabaq anamla mən həmişə o yolla Şahbuza – qardaşımgilə, bacımgilə, bibimgilə gəlmişəm. O yol mənimçün çox doğmadır. Şahbuza gedəndə, Şahbuzun hər gülündə, çiçəyində o xatirələr dilə gəlir. Məndən orada Naxçıvan televiziyası müsahibə aldı, dedim, yəqin ki, mən bir də gələndə buradan Zəngəzura gedəcəm. O "dəmir yumruğ"un gücünə inanıram. Zəngəzur mənim ata-babalarımın yurdudur və biz ora qayıdacağıq. Biz əgər Şuşanı işğaldan azad etmişiksə, inanıram ki, o "dəmir yumruğ"un, qəhrəman oğullarımızın hesabına biz Zəngəzuru da, bütövlükdə, geri qaytara biləcəyik. Mənim adaşım – nəvəm 6 yaşında olanda bir şair ona sual verdi ki, sən haralısan? Dedi ki, mən bakılıyam. Atan haralıdır? Dedi atam da bakılıdır. Bəs nənən haralıdır? Nənəm? hmm, – deyə gülümsədi, nənəm şuşalıdır, qarabağlıdır, qəribə (yəni qərbi demək istəyib) azərbaycanlıdır, nəqşicahanlıdır, Arazın o tayıdır. Şair baxdı, baxdı, dedi ki, ay Flora xanım, sənin bu 6 yaşlı nəvən bütün Azərbaycanın xəritəsini, coğrafiyasını qoydu ortalığa. Əvvəllər belə bir xasiyyətim yox idi. Son vaxtlar adamlardan soruşuram: "Haralısan?" Ona görə yox ki, axtarıram naxçıvanlı olsun, yox mən onun ictimai mənşəyini dəqiq anlamaq üçün soruşuram haralısan? Amma nə gizlədim naxçıvanlı deyəndə rahat – könül dolusu nəfəs alıram. Bu, türk oğludur, bu, türk qızıdır, bu, türk millətidir.

*– Sonda ürəyində böyük Naxçıvan sevgisi daşıyan Flora xanım naxçıvanlılara nə demək istəyərdi?*

– Naxçıvanlılar birinci ona görə xoşbəxtdir ki, belə bir məkanın sahibidirlər. Belə bir yerdə doğulub, böyüyüblər. Belə bir fərqli yerdə... Naxçıvanlılar bir də ona görə xoşbəxtdirlər ki, Azərbaycanın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev bu torpaqda doğulub. Naxçıvanlılar üçüncü dəfə ona görə xoşbəxtdirlər ki, Azərbaycan torpaqlarını işğaldan azad edən böyük insan, bu torpaqda doğulan ümummilli liderimiz Heydər Əliyevin oğludur, bundan artıq nə ola bilər? Bu gün isə Naxçıvan tarixində ən fərəhli illərini yaşayır. Naxçıvan səmərəli, düzgün, düşünülmüş dövlətçilik fəaliyyətinin ən uca zirvəsinə yetib. Mənim əzizlərim, mənim doğmalarım, siz bəxtəvərsiniz, xoşbəxtsiniz ki, Naxçıvanda yaşayırsınız...

*Flora xanım, siz də çox sağ olun. Siz də nə yaxşı varsınız. Nə yaxşı ki dəyərli vaxtınızı ayırıb Naxçıvana gəldiniz, ürəyinizdən keçənləri bizimlə paylaşdınız. İnanıram ki, Naxçıvan və naxçıvanlılar haqqında Flora xanımın xoş sözləri oxucuların da ürəyini, ruhunu oxşayacaq. Yenidən sizi bu torpaqda görmək arzusu ilə...*

**Müsahibəni aldı:**
**Sara ƏZİMOVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2 iyul-2 avqust 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Tabe təşkilat və ya struktur bölmə | Vəzifə | Ştat sayı |
|---|---|---|---|
| 940001004 | Nazirliyin Mərkəzi Mühasibatlığı | Aparıcı mühasib | 1 |
| **Cəmi:** | | | **1** |
| 940002012 | Naxçıvan Dövlət Filarmoniyası | Baş inzibatçı | 1 |
| 940002094 | | Mühasib-xəzinədar | 1 |
| 940002075 | | Quruluşçu rejissor | 1 |
| 940002091 | | Musiqi redaktoru | 1 |
| 940002073 | | Konsert aparan artist | 1 |
| 940002059 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (nağara) | 2 |
| 940002056 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (balaban) | 2 |
| 940002060 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (tar) | 7 |
| 940002058 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (kamança) | 4 |
| 940002126 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (klarnet) | 1 |
| 940002127 | | Xalq Çalğı Alətləri Orkestri, orkestr artisti (piano) | 1 |
| 940002069 | | Kamera Orkestri, orkestr artisti (violonçel) | 1 |
| 940002066 | | Kamera Orkestri, orkestr artisti (klarnet) | 1 |
| 940002065 | | Kamera Orkestri, orkestr artisti (alt (viola) | 1 |
| 940002068 | | Kamera Orkestri, orkestr artisti (skripka) | 6 |
| 940002047 | | Estrada Orkestri, orkestr artisti (trombon) | 1 |
| 940002043 | | Estrada Orkestri, orkestr artisti (fortepiano) | 1 |
| 940002046 | | Estrada Orkestri, orkestr artisti (skripka) | 6 |
| 940002042 | | Estrada Orkestri, orkestr artisti (fleyta) | 1 |
| 940002128 | | Estrada Orkestri, orkestr artisti (violonçel) | 2 |
| 940002129 | | Mahnı və Rəqs Ansamblı, xor artisti (alt) | 3 |
| 940002086 | | Mahnı və Rəqs Ansamblı, xormeyster | 1 |
| 940002076 | | Mahnı və Rəqs Ansamblı, xor artisti (qadın, alt) | 1 |
| 940002080 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (klarnet) | 2 |
| 940002081 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (qarmon) | 2 |
| 940002079 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (balaban) | 1 |
| 940002078 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (kamança) | 1 |
| 940002077 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (bas tar) | 1 |
| **Cəmi:** | | | **54** |
| 940003103 | Naxçıvan Dövlət Uşaq Filarmoniyası | Rəssam | 1 |
| **Cəmi:** | | | **1** |
| 940004090 | Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı | Musiqi hissə rəhbəri | 1 |
| 940004048 | | Ədəbi dram hissənin rəhbəri | 1 |
| 940004102 | | Rejissor assistenti | 1 |
| 940004005 | | Aparıcı səhnə ustası | 6 |
| 940004130 | | Dram artisti | 8 |
| 940004099 | | Orkestr artisti | 8 |
| 940004109 | | Vokalçı artist | 2 |
| 940004034 | | Dekorçu rəssam | 1 |
| **Cəmi:** | | | **28** |
| 940005012 | Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı | Baş inzibatçı | 1 |
| 940005075 | | Quruluşçu rejissor | 1 |
| 940005021 | | Bədii rəhbərin truppa üzrə köməkçisi | 1 |
| 940005033 | | Butaforçu-dekoratorçu | 2 |
| **Cəmi:** | | | **5** |
| 940006074 | Naxçıvan Dövlət Uşaq Teatrı | Quruluş hissə müdiri | 1 |
| **Cəmi:** | | | **1** |
| 940007105 | Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası | Şöbə müdiri | 1 |
| 940007026 | | Bölmə müdiri | 1 |
| 940007110 | | Zal müdiri | 1 |
| 940007008 | | Baş kitabxanaçı | 1 |
| 940007030 | | Böyük kitabxanaçı | 1 |
| 940007131 | | İnformasiya texnologiyaları üzrə mütəxəssis | 1 |
| **Cəmi:** | | | **6** |
| 940008098 | Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası | Oxu zalının müdiri | 1 |
| 940008030 | | Böyük kitabxanaçı | 1 |
| **Cəmi:** | | | **2** |
| 940009087 | Heydər Əliyev Sarayı | Metodist | 2 |
| 940009106 | | Tərtibatçı rəssam | 1 |
| **Cəmi:** | | | **3** |
| 940010038 | Heydər Əliyev Muzeyi | Elmi işçi | 1 |
| **Cəmi:** | | | **1** |
| 940017113 | Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi | Baş elmi işçi | 1 |
| **Cəmi:** | | | **1** |
| 940011023 | Naxçıvan Dövlət Tarix Muzeyi | Bələdçi | 1 |
| **Cəmi:** | | | **1** |
| 940013106 | "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi | Tərtibatçı rəssam | 1 |
| **Cəmi:** | | | **1** |
| 940020023 | "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi | Bələdçi | 2 |
| **Cəmi:** | | | **2** |
| 940021023 | Naxçıvan Dövlət Rəsm Qalereyası | Bələdçi | 1 |
| **Cəmi:** | | | **1** |
| 940015105 | Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz | Şöbə müdiri | 1 |
| 940015115 | | Aparıcı metodist | 1 |
| 940015087 | | Metodist | 1 |
| **Cəmi:** | | | **3** |
| **Naxçıvan Şəhər Mədəniyyət İdarəsi** | | | |
| 941001093 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin mərkəzi mühasibatlığı | Mühasib | 1 |
| 941003035 | 2 nömrəli Mədəniyyət Evi | Direktor | 1 |
| 941005018 | Qaraçuq kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 941006018 | Qaraxanbəyli kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 941007018 | Tumbul kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 941009105 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Komplektləşdirmə və kitabişləmə şöbəsi | Şöbə müdiri | 1 |
| 941012105 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Uşaq şöbəsi | Şöbə müdiri | 1 |
| 941010008 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Baş kitabxanaçı | 1 |
| 941011027 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Böyük biblioqraf | 1 |
| 941022050 | Tumbul kənd kitabxana filialı | Filial müdiri | 1 |
| **Cəmi:** | | | **10** |
| **Şərur Rayon Mədəniyyət İdarəsi** | | | |
| 942002087 | Şərur Rayon Mədəniyyət Sarayı | Metodist | 2 |
| 942002088 | | Mədəni təşkilatçı | 1 |
| 942003035 | Axura kənd mədəniyyət evi | Direktor | 1 |
| 942003088 | | Mədəni təşkilatçı | 1 |
| 942005018 | Aşağı Yaycı kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942010018 | Düdəngə kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942010088 | | Mədəni təşkilatçı | 1 |
| 942014035 | İbadulla kənd mədəniyyət evi | Direktor | 1 |
| 942015018 | Qarahəsənli kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942015087 | | Metodist | 1 |
| 942017088 | Mahmudkənd kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 942018088 | Maxta kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 942019035 | Oğlanqala kənd mədəniyyət evi | Direktor | 1 |
| 942019087 | | Metodist | 1 |
| 942020035 | Püsyan kənd mədəniyyət evi | Direktor | 1 |
| 942022088 | Şəhriyar kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 942028072 | Axaməd kənd klubu | Müdir | 1 |
| 942028088 | | Mədəni təşkilatçı | 1 |
| 942037088 | Diyadin kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 945018088 | Dizə kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942041088 | Həmzəli kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942043092 | Kərimbəyli kənd klubu | Müdir | 1 |
| 942045072 | Kürçülü kənd klubu | Müdir | 1 |
| 942045088 | | Mədəni təşkilatçı | 1 |
| 942047092 | Qaraburc kənd klubu | Müdir | 1 |
| 942047088 | | Mədəni təşkilatçı | 1 |
| 942049088 | Qorçulu kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942052088 | Muğanlı kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942053092 | Sərxanlı kənd klubu | Müdir | 1 |
| 942054088 | Şahbulaq kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942055088 | Təzəkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942056088 | Tumaslı kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942059088 | Yuxarı Daşarx kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942062106 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası | Tərtibatçı rəssam | 1 |
| 942067030 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Böyük kitabxanaçı | 2 |
| 942074050 | Aşağı Yaycı kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942087050 | Həmzəli kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942090050 | Xətai kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942093050 | Kürçülü kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942096050 | Qarxun kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942099050 | Mahmudkənd kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942109071 | Tənənəm kənd kitabxana filialı | Kitabxanaçı | 1 |
| 942125088 | Şərur Şəhər Təqaüdçülər Klubu | Mədəni təşkilatçı | 1 |
| **Cəmi:** | | | **45** |
| **Babək Rayon Mədəniyyət İdarəsi** | | | |
| 943000022 | Babək Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər-rejissor | 1 |
| 943000087 | | Metodist | 1 |
| 943000088 | | Mədəni təşkilatçı | 1 |

| | | | |
|---|---|---|---|
| 943001088 | Babək şəhər mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 943003035 | Nehrəm qəsəbə mədəniyyət evi | Direktor | 1 |
| 943004035 | Aşağı Buzqov kənd mədəniyyət evi | Direktor | 1 |
| 943006087 | Güznüt kənd mədəniyyət evi | Metodist | 1 |
| 943008018 | Kültəpə kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 943067092 | Gülşənabad kənd klubu | Müdir | 1 |
| 943019092 | Xalxal kənd klubu | Müdir | 1 |
| 943019088 | | Mədəni təşkilatçı | 1 |
| 943023088 | Naxışnərgiz kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 943031013 | Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Baş kitabxanaçı | 1 |
| 943032071 | Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Kitabxanaçı | 1 |
| 943040092 | Güznüt kənd kitabxana filialı | Müdir | 1 |
| 943040071 | | Kitabxanaçı | 1 |
| 943069092 | Nehrəm qəsəbə kitabxana filialı | Müdir | 1 |
| **Cəmi:** | | | **17** |
| **Ordubad Rayon Mədəniyyət İdarəsi** | | | |
| 944000018 | Ordubad Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər | 1 |
| 944000106 | | Tərtibatçı rəssam | 1 |
| 944000087 | | Metodist | 1 |
| 944002087 | Aşağı Əndəmic kənd mədəniyyət evi | Metodist | 1 |
| 944003035 | Aşağı Əylis kənd mədəniyyət evi | Direktor | 1 |
| 944003018 | | Bədii rəhbər | 1 |
| 944004035 | Aza kənd mədəniyyət evi | Direktor | 1 |
| 944004088 | | Mədəni təşkilatçı | 1 |
| 944005088 | Bist kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 944008035 | Düylün kənd mədəniyyət evi | Direktor | 1 |
| 944008087 | | Metodist | 1 |
| 944008088 | | Mədəni təşkilatçı | 1 |
| 944014035 | Üstüpü kənd mədəniyyət evi | Direktor | 1 |
| 944016035 | Yuxarı Əylis kənd mədəniyyət evi | Direktor | 1 |
| 944016018 | | Bədii rəhbər | 1 |
| 944017088 | Ordubad şəhər klubu | Mədəni təşkilatçı | 1 |
| 944020092 | Behrud kənd klubu | Müdir | 1 |
| 944020088 | | Mədəni təşkilatçı | 1 |
| 944021092 | Çənnəb kənd klubu | Müdir | 1 |
| 944021088 | | Mədəni təşkilatçı | 1 |
| 944023088 | Gilançay kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944024088 | Xurs kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944026092 | Qoşadizə kənd klubu | Müdir | 1 |
| 944028088 | Nəsirvaz kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944030088 | Parağa kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944032088 | Sabirkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944034092 | Yuxarı Əndəmic kənd klubu | Müdir | 1 |
| 944035106 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası | Tərtibatçı rəssam | 1 |
| 944037002 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Abonoment üzrə kitabxanaçı | 1 |
| 944038105 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Şöbə müdiri | 1 |
| 944038071 | | Kitabxanaçı | 1 |
| 944046050 | Baş Dizə kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944054050 | Gənzə kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944055050 | Gilançay kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944063050 | Nəsirvaz kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944077050 | Yuxarı Əylis kənd kitabxana filialı | Filial müdiri | 1 |
| **Cəmi:** | | | **36** |
| **Culfa Rayon Mədəniyyət İdarəsi** | | | |
| 945002035 | Culfa Rayon Mədəniyyət Sarayı | Direktor | 1 |
| 945002106 | | Tərtibatçı rəssam | 1 |
| 945003035 | Bənəniyar kənd mədəniyyət evi | Direktor | 1 |
| 945003018 | | Bədii rəhbər | 1 |
| 945004087 | Camaldın kənd mədəniyyət evi | Metodist | 1 |
| 945005018 | Əbrəqunus kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 945015035 | Yaycı kənd mədəniyyət evi | Direktor | 1 |
| 945016092 | Culfa şəhər klubu | Müdir | 1 |
| 945018092 | Dizə kənd klubu | Müdir | 1 |
| 945020088 | Gal kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 945022088 | Ləkətağ kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 945023092 | Şurud kənd klubu | Müdir | 1 |
| 945023088 | | Mədəni təşkilatçı | 1 |
| 945024092 | Teyvaz kənd klubu | Müdir | 1 |
| 945027098 | Culfa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalının müdiri | 1 |
| 945029030 | Culfa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Böyük kitabxanaçı | 1 |
| 945035050 | Gal kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945046050 | Yaycı kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945045050 | Teyvaz kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945050024 | Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Tərtibatçı rəssam | 1 |
| 945050023 | Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Bələdçi | 1 |
| 945052132 | Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı-kargüzar | 1 |
| **Cəmi:** | | | **22** |
| **Kəngərli Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 946002022 | Kəngərli Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər-rejissor | 1 |
| 946002087 | | Metodist | 1 |
| 946002088 | | Mədəni təşkilatçı | 1 |
| 946003035 | Böyükdüz kənd mədəniyyət evi | Direktor | 1 |
| 946003018 | | Bədii rəhbər | 1 |
| 946004088 | Çalxanqala kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 946005088 | Qabıllı kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 946005018 | | Bədii rəhbər | 1 |
| 946006087 | Qarabağlar kənd mədəniyyət evi | Metodist | 1 |
| 946007018 | Şahtaxtı kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 946010088 | Xıncab kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946009092 | Xok kənd klubu | Müdir | 1 |
| 946009088 | | Mədəni təşkilatçı | 1 |
| 946008088 | Təzəkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946011088 | Yeni Kərki kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946012088 | Yurdçu kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946013106 | Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası | Tərtibatçı rəssam | 1 |
| 946017098 | Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalının müdiri | 1 |
| 946031050 | Çalxanqala kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 946025050 | Təzəkənd kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 946029106 | Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Tərtibatçı rəssam | 1 |
| **Cəmi:** | | | **21** |
| **Şahbuz Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 947001133 | Şahbuz Rayon Mədəniyyət Sarayı | Xalq teatrının rejissoru | 1 |
| 947001134 | | Xalq teatrının rəssamı | 1 |
| 947001018 | | Bədii rəhbər | 1 |
| 947004088 | Badamlı kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 947008035 | Keçili kənd mədəniyyət evi | Direktor | 1 |
| 947018072 | Ağbulaq kənd klubu | Klub müdiri | 1 |
| 947018088 | | Mədəni təşkilatçı | 1 |
| 947025072 | Şada kənd klubu | Klub müdiri | 1 |
| 947028106 | Şahbuz Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxana Sistemi | Tərtibatçı rəssam | 1 |
| 947037050 | Badamlı qəsəbə kitabxana filialı | Filial müdiri | 1 |
| 947045050 | Qızıl Qışlaq kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 947051050 | Yuxarı Qışlaq kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 947053024 | Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Bərpaçı rəssam | 1 |
| **Cəmi:** | | | **13** |
| **Sədərək Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 948001106 | Sədərək Rayon Mədəniyyət Sarayı | Tərtibatçı rəssam | 1 |
| 948003018 | Dəmirçi kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 948007105 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Şöbə müdiri | 1 |
| 948008105 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Kitabişləmə və komplektləşdirmə şöbəsi | Şöbə müdiri | 1 |
| 948010030 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Uşaq şöbəsi | Böyük kitabxanaçı | 1 |
| 948005088 | Qaraağac kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 948015023 | Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Bələdçi | 1 |
| 948016132 | Sədərək Rayon Uşaq Musiqi Məktəbi | Kitabxanaçı-kargüzar | 1 |
| **Cəmi:** | | | **8** |
| **Yekun:** | | | **283** |

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 13 iyul 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlakın adı | Ünvan | İstismara verildiyi il | Əmlakın ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 5 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 1. | Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsinin inzibati binası və yardımçı tikililəri | Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi-118 | 1980 | 76000,0 | 3800 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 8 iyul 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 iyul 2022-ci il tarixdə saat 11[00]-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 582